QANUN № 01 (351), 2024, s. 50-55

**Hacıyev Həbib Bəhruz oğlu,**
hüquq üzrə fəlsəfə doktoru, SOCAR-ın Qaz İxrac İdarəsinin Hüquq şöbəsinin rəisi
E-mail: h.hajiyev@hotmail.com

**UOT 342.9**
**DOI 10.30546/2218-9130. 01.351.2024.50**

# KİBERTƏHLÜKƏSİZLİYİN ANLAYIŞI: MİLLİ TƏHLÜKƏSİZLİKLƏ BAĞLI MÜDDƏALAR KONTEKSTİNDƏ

***Açar sözlər:*** *milli təhlükəsizlik, kibertəhlükəsizlik, milli maraq, dövlət təhlükəsizliyi, konsepsiya, qanun.*

***Ключевые слова:*** *национальная безопасность, кибербезопасность, национальный интерес, государственная безопасность, концепция, закон.*

***Keywords:*** *national security, cyber security, national interest, state security, concept, law.*

Təhlükəsizlik ideyası hər bir dövləti və cəmiyyəti, o cümlədən gələcək nəsilləri düşündürən, insanların zəruri ehtiyaclarının ödənilməsinin təmin edilməsinə yönəlmiş davamlı və inklüziv inkişafın mərkəzi mövzularından biridir. Bu mövzuya beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə daimi istinadların edilməsi də onun kifayət qədər aktual olduğunu təsdiq edir. Nümunə olaraq BMT Baş Assambleyasının 20 noyabr 1963-cü il tarixdə keçirilmiş 1261-ci plenar iclasında 1904 (XVIII) saylı qətnamə ilə qəbul edilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Bəyannamə", 1965-ci il dekabrın 7-də BMT Baş Assambleyasının 2037 (XX) saylı qətnaməsi ilə qəbul edilmiş "Sülh, xalqlar arasında qarşılıqlı hörmət və anlaşma ideallarının gənclər arasında yayılması haqqında bəyannamə", "Kibercinayətkarlıq haqqında" 2001-ci il noyabrın 23-də Budapeşt şəhərində imzalanmış Konvensiya və s. göstərilə bilər.

Digər tərəfdən, artıq heç kimə sirr deyildir ki, keçmiş Sovetlər İttifaqı dövlətinin süqutu ilə dünyanın əsas siyasi və iqtisadi güc mərkəzləri arasında mövcud olan tarazlıq pozulmuş, birqütblü dünya yaranmışdır. Dünyanı öz təsiri altına almaq istəyən monopolistlərə xidmət edən güclü dövlətlər öz məqsədlərinə nail olmaqdan ötrü münaqişələrin və beynəlxalq terrorçuluğa qarşı mübarizə aparmaq ideyası altında lokal müharibə ocaqlarının yaradılmasında maraqlıdırlar. Belə bir vəziyyətdə isə heç bir şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükədən kənarda qalması mümkün deyildir [8, s. 402-414]. Beləliklə, təhlükəsizliyin təmin edilməsi hər bir dövlətin normal fəaliyyətinin təşkilinin vacib alətlərindən biri olduğundan, diqqəti onun məzmununu aydınlaşdırmağa kömək edən anlayışların mövcud qanunvericilik və doktrinal yanaşmalarına yönəldək.

Rusiya Federasiyası Konstitusiyasının 71-ci maddəsində dövlətin təhlükəsizliyi Rusiya Federasiyasının idarəçiliyinə aid edilmişdir [7]. Azərbaycan Respublikasının Konstitusiyası da öz növbəsində dövlətin təhlükəsizliyinin qanunvericilik təminatının əsasını təşkil edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi və müəllifliyi ilə işlənib hazırlanmış və 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasının preambulasında digər dəyərlərlə yanaşı, təhlükəsizliyin bərqərar edilməsi də öz təsbitini tapmışdır. Konstitusiyanın 94-cü maddəsində təhlükəsizliyin əsasları üzrə ümumi qaydaların müəyyən edilməsi Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aid edilmişdir. Bu müddəaya uyğun olaraq ölkəmizin qanunverici orqanı tərəfindən təhlükəsizlik mövzusuna az və ya çox səviyyədə toxunan bir sıra qanunlar qəbul edilmişdir. Bunların sırasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" 3 aprel 1998-ci il tarixli 460-IQ nömrəli, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli 728-IQ nömrəli, "Feldyeger rabitəsi haqqında" 13 may 2003-cü il tarixli 453-IIQ nömrəli, "Dövlət sirri haqqında" 7 sentyabr 2004-cü il tarixli 733-IIQ nömrəli, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" 29 iyun 2004-cü il tarixli 711-IIQ nömrəli, "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli 712-IIQ nömrəli, 30 dekabr 1999-cu il tarixli Cinayət Məcəlləsinin və digər qanunların adını qeyd etmək olar. Lakin nə bu qanunlarda, nə də milli qanunvericilik sisteminə daxil olan digər normativ hüquqi aktlarda təhlükəsizliyin anlayışının verilməsinə rast gəlinmir.

Bu baxımdan, ilk növbədə, təhlükəsizlik sözünün etimoloji mənasına diqqət yetirək. "Təhlükəsizlik» ifadəsindən hüquq, politologiya və s. elm sahələrində, habelə bir sıra hadisə və proseslərə münasibətdə istifadə olunur. N.Nağıyevin fikrincə, təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin vacib həyati maraqlarının daxili və xarici təhdidlərdən mühafizə olunması halıdır [5]. Azərbaycan dilinin izahlı lüğətinə əsasən, "təhlükəsizlik" heç bir təhlükə olmadığı hal, vəziyyət, şərait mənasını ifadə edir [1, s. 292]. Rusiyada nəşr olunmuş "Hüquq ensiklopediyası"nda göstərilir ki, təhlükəsizlik (ingilis dilində "safety", "security", fransız dilində "security") şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli maraqlarının siyasi, iqtisadi, sosial, hərbi, texnogen, ekoloji, informasiya və s. xarakterli daxili və xarici təhdidlərdən müdafiə oluna bilmək vəziyyətini, dövlətdə siyasi, iqtisadi və sosial stabilliyin müəyyən edilməsini, qanunlara və hüquq qaydalarına əməl olunmasını, tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini ifadə edir [10, s. 82]. Fikrimizcə, milli ədəbiyyatımızda düzgün olaraq göstərilmişdir ki, həmin ensiklopediyada təhlükəsizliyə verilmiş anlayış əslində milli təhlükəsizliyə verilmiş anlayış məzmunundadır. Təhlükəsizlik – təhlükənin olmaması və ya potensial təhdidin, hədənin qarşısını səmərəli surətdə almaq və ya ləğv etmək vəziyyətini əks etdirir. Təhlükəsizliyin beynəlxalq təhlükəsizlik, milli təhlükəsizlik, dövlət təhlükəsizliyi, ictimai təhlükəsizlik, siyasi, iqtisadi, sosial, hüquqi, hərbi, texnoloji, ekoloji, informasiya, demoqrafik, psixoloji təhlükəsizlik və s. növləri fərqləndirilir. Beləliklə, təhlükəsizlik nisbi anlayışdır və insan fəaliyyətinin, ətraf aləmin konkret obyektinə münasibətdə istifadə edildikdə müəyyən məzmun əldə etmiş olur [3, s. 54-61].

"Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nın 1-ci hissəsi "Təhlükəsizlik mühiti" adlanır. "Dövlət sirri haqqında" 7 sentyabr 2004-cü il tarixli Qanunun preambulasında onun Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə qəbul edildiyi təsbit olunmuşdur. Yeri gəlmişkən, Rusiya Federasiyasının "Təhlükəsizlik haqqında" 7 dekabr 2010-cu il tarixli Qanununda dövlətin təhlükəsizliyi, ictimai təhlükəsizlik, ekoloji təhlükəsizlik, şəxsiyyətin təhlükəsizliyi və təhlükəsizliyin digər növləri fərqləndirilmiş, eyni zamanda, onun bilavasitə definisiyası ve-

rilmişdir. Federal qanunla müəyyən edilmişdir ki, təhlükəsizlik fərdin, cəmiyyətin və dövlətin həyati mənafelərinin daxili və xarici təhlükələrdən qorunması vəziyyətidir. Həyati əhəmiyyətli maraqlar ehtiyacların məcmusunu təmsil edir, onların ödənilməsi şəxsiyyətin, cəmiyyətin və dövlətin mütərəqqi inkişafının mövcudluğunu və imkanlarını etibarlı şəkildə təmin edir. Təhlükəsizliyə fərdin, cəmiyyətin və dövlətin həyati mənafelərinə təhlükə yaradan şərait və amillərin məcmusu kimi baxılmışdır [11].

Bir çox dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında dövlətin təhlükəsizliyi, o cümlədən milli təhlükəsizlik bəzi normativ sənədlərin əsas anlayışı kimi təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda dünyada baş verən sürətli dəyişikliklər şəraitində bəşəriyyətin terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üzləşdiyi qeyd olunmuş və göstərilmişdir ki, bu amillər hər bir dövlətin təhlükəsizliyinə qarşı risklərin müəyyənləşdirilməsini, bu risklərin qabaqlanması, aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir [2].

Ümumiyyətlə, təhlükəsizlik ifadəsindən həm müstəqim, həm də vasitəli mənada daha çox milli təhlükəsizlik və onunla əlaqəli normativ sənədlərdə istifadə olunur. Mürəkkəb sosial-siyasi hadisə olan milli təhlükəsizlik tarixi kateqoriya olmaqla «insan-təbiət-cəmiyyət» sistemində qarşılıqlı əlaqənin formaları ilə bağlıdır. Milli təhlükəsizlik terminindən ilk dəfə 1904-cü ildə Amerika alimlərinə məxsus geosiyasi ədəbiyyatlarda istifadə olunmuşdur. Rusiya Federasiyasının rəsmi sənədlərində yalnız 1993-cü ildən sonra «milli təhlükəsizlik» terminindən bilavasitə istifadə edilməyə başlanılmışdır [6].

Azərbaycan dövlətinin milli təhlükəsizlik konsepsiyasına əsasən, milli təhlükəsizlik dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçim kimi Avratlantik məkana inteqrasiyanı, tarazlaşdırılmış xarici siyasətin çoxşaxəliliyini, ölkədə şəxsiyyət, cəmiyyət və dövlətin xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarını əks etdirir [2]. Milli təhlükəsizliyin qanunvericilik anlayışında onun obyektləri öz əksini lazımi səviyyədə tapmış, komponentlərinə haqlı olaraq dövlət, ictimai, ekoloji, iqtisadi, hərbi, informasiya və s. təhlükəsizlik növləri aid edilmişdir. Milli təhlükəsizlik məsələsi həmçinin şəxsiyyətin, cəmiyyətin və dövlətin mövcudluğu və optimal inkişafının təmin edilməsinə yönələn elmi-təcrübi problemdir.

Azərbaycanın milli təhlükəsizlik strategiyası çərçivəsində kibertəhlükəsizliyin təmin edilməsi ön sırada dayanır. Müasir dövrdə informasiya infrastrukturlarına və strateji iqtisadi sektorlara qarşı kiberhücumlardan istifadə qlobal tendensiya səciyyəsi almışdır. Əsas təhlükələrə müdafiə sənayesi, səhiyyə, nəqliyyat infrastrukturu, kredit-bank sistemi, enerji infrastrukturu və s. obyektlər daxildir. Kibertəhlükəsizlik hər bir müstəqil dövlətin suverenliyinin, müdafiə qabiliyyətinin, iqtisadi inkişafının, sosial sahəsinin, bir sözlə, milli təhlükəsizliyinin səmərəli təmin edilməsinin amili kimi strateji əhəmiyyət kəsb edir. Bu baxımdan milli təhlükəsizliyin anlayışı məsələsinə diqqət yetirməliyik.

Milli təhlükəsizliyin dar və geniş mənada anlayışları vardır. Dar mənada milli təhlükəsizlik daha çox dövlətin təhlükəsizliyi kontekstində nəzərdən keçirilir. Geniş mənada isə bu anlayış özünə həm siyasi, hərbi, müdafiə məsələlərini,

həm də iqtisadi, sosial, hüquqi, ekoloji, mülki məsələləri daxil edir. Milli müəlliflərimizdən olan Ç.F.Mustafayev milli təhlükəsizliyin geniş anlayışına şəxsiyyətin, xalqın, konkret dövlətdə yaşayan millətlərin, dövlətin və bütövlükdə cəmiyyətin təhlükəsizliyini aid etmişdir. Müəllifin fikrincə, milli təhlükəsizlik cəmiyyətin öz bütövlüyünü, siyasi, iqtisadi, sosial və başqa əsaslarını daxili və xarici təhdidlərdən qorumaq və beynəlxalq münasibətlər sistemində müstəqil subyekt kimi çıxış etmək qabiliyyətidir [4, s. 4].

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun (29 iyun 2004-cü il) 1-ci maddəsində milli təhlükəsizliyə anlayış verilmişdir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi – dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir". Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası»na əsasən ölkəmizin milli təhlükəsizliyi dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçim kimi Avratlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövlətin xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarını əks etdirir.

Qeyd edilənlərə yekun vuraraq, ədəbiyyatlarda milli təhlükəsizliyə verilmiş anlayışları aşağıdakı şəkildə ümumiləşdirmək olar: 1) millətin mövcudluğuna xaricdən və ya daxildən olan təhlükənin qarşısının alınması üçün yetərli iqtisadi və hərbi gücü təmin edən vəziyyət; 2) xarici təhlükədən müdafiə olunmağa real gücün olması; 3) dövlətin kütləvi qırğın silahlarının təhlükəsindən müdafiə olunması vəziyyəti; 4) sosiumun müdafiəsini, ayrı-ayrı fərdlərin, sosial qrupların, etnosların, konfessiyaların yaradıcılıq imkanlarının açılmasına imkan verən əlverişli şəraitin yaradılması; 5) insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsi; 6) hər bir ölkənin sabit inkişafının, şəxsiyyətin, cəmiyyətin və dövlətin müxtəlif fəaliyyət sahələrində həyati əhəmiyyətli maraqlarının daxili və xarici təhdidlərdən etibarlı müdafiə oluna bilmək təminatı. Sonuncu mövqe milli müəllifimiz N.K.Əliyevə məxsusdur [3] və biz onu daha dolğun və düzgün hesab edirik.

Milli təhlükəsizlik konsepsiyasının əsasında milli maraq problemi dayanır. "Milli təhlükəsizlik haqqında" Qanunun 6.1-ci maddəsində Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusu kimi müəyyən olunmuşdur. Ümumən, dövlətlərin əsas inkişaf prioritetləri ilk növbədə onun milli maraqları ilə müəyyən olunur. N.Nağıyevin fikrincə, milli maraqlar milli təhlükəsizlik şəraitinin mövcudluğunu tələb edir. Milli maraqlardan təmin olunmasında əsas yerlərdən birini dövlətçiliyin qorunub saxlanılması tutur [5].

Ümumiyyətlə, ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, milli maraq termininə verilən anlayışların heç biri obyektiv sayıla bilməz, milli maraq haqqında istənilən düşüncə subyektivdir [12, s. 88]. ABŞ-nin yeni yüzilliyinin Milli Strategiyasında milli maraqların aşağıdakı təsnifatı aparılmışdır: 1) həyati əhəmiyyətli maraqlar; 2) mühüm milli maraqlar; 3) humanitar və digər maraqlar. Həyati əhəmiyyətli maraqlara fövqəladə dərəcə mühüm, millətin mövcudluğu, təhlükəsizliyi üçün vacib olan maraqlar aid edilir [9].

Hər bir xalqın milli marağı onun tarixi təkamülü prosesində, siyasi, iqtisadi, sosial, mədəni, psixoloji amillərin vəhdətində, dövlətin geosiyasi və geoiqtisadi parametrlərinə uyğun, ziddiyyətli, lakin qarşılıqlı əlaqəli və bir-birini tamamlayan təhlükələrin qarşısının alınması nəticəsində formalaşır. Bu prosesə ölkənin iqtisadi inkişaf səviyyəsi, beynəlxalq nüfuzu, milli-mədəni ənənələri, siyasi rejimin legitimliyi, sabitliyi və sair amillər öz təsirini göstərir. Eyni zamanda, hər bir dövlətin milli marağı digər dövlətlərin və ümumilikdə dünyanın maraqlarının nəzərə alınması şərti ilə müəyyən edilir.

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. – Bakı: Şərq-Qərb. – 2006, 712 s.
2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/13373
3. Əliyev N.K. Milli təhlükəsizliyin anlayışı və qanunvericilik təminatının bəzi aspektləri haqqında // "Qanun" elmi hüquq jurnalı, – 2017. № 9 (275), – s. 54-61.
4. Mustafayev Ç.F. Azərbaycan Respublikasının milli təhlükəsizliyiynin təmin edilməsi məsələləri // "Qanun" elmi hüquq jurnalı, – 2014. № 1 (231), – s. 3-12.
5. Nağıyev N. Milli təhlükəsizlik və onun təmin olunması sistemi // "Dirçəliş-XXI əsr", – 2008, № 124-125.
6. Кателевский А.И. Безопасность и национальная безопасность: понятие, сущность, особенности: [Электронный ресурс]/ URL: http://www.superinf.ru/view_helpstud.php?id=2502
7. Конституция Российской Федерации. – М., ИНФРА-М, 2006. – 48 с.
8. Мустафаев Ч.Ф. Разрушение мировой системы социализма и СССР – это катастрофа или историческая неизбежность? // «Dirçəliş» jurnalı, – 2008. № 122-123, – s. 402-414.
9. Стратегия национальной безопасности США для нового столетия: [Электронный ресурс]/URL: http://www.politology.vuzlib.su/book_o003_page_186.html
10. Тихомирова Л.В., Тихомиров М.Ю. Юридическая Энциклопедия. – М.: Юринформцентр, 2002. – 972 с.
11. Федеральный закон «О безопасности»: [Электронный ресурс]/ URL: http://svr.gov.ru/svr_today/doc4.htm
12. Duroselle J.B. Tout empire perira: Une vision theorique des relations internationales. – Paris: Université de Paris 1, 1982, – p. 357.


**Гаджиев Хабиб Бахруз оглу**

## ПОНЯТИЕ КИБЕРБЕЗОПАСНОСТИ: В КОНТЕКСТЕ ПОЛОЖЕНИЙ С НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

### РЕЗЮМЕ

В статье рассматривается понятие кибербезопасности в контексте обеспечения национальной безопасности. Различают понятия национальной безопасности в узком и широком смысле. В узком смысле национальная безопасность рассматривается в контексте безопасности государства, а в широком смысле это понятие включает в себя политические, военные, оборонные, экономические, социальные, правовые, экологические и даже гражданские вопросы. В целом национальная безопасность рассматривается как гарантия стабильного развития каждой страны, способность надежно защищать жизненно важные интересы личности, общества и государства от внутренних и внешних угроз в различных сферах деятельности.

**Hajiyev Habib Bahruz**

**THE CONCEPT OF CYBER SECURITY: IN THE CONTEXT OF PROVISIONS RELATED TO NATIONAL SECURITY**

**SUMMARY**

The article examines the concept of cyber security in the context of national security provisions. Concepts of national security in a narrow and broad sense are distinguished. In a narrow sense, national security is considered in the context of state security, and in a broad sense, this concept includes political, military, defense, economic, social, legal, environmental, and even civil issues. As a whole, national security is considered as a guarantee of the stable development of each country, the ability to reliably protect the vital interests of the individual, society and the state from internal and external threats in various fields of activity.

**Redaksiyaya daxilolma tarixi: 07.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 10.01.2024**
**Çapa qəbul olunma tarixi: 14.01.2024**